**Məqalə ADPU-nun "Ədəbiyyat" kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Razim Əli oğlu Məmmədovun rəyi əsasında nəşrə tövsiyyə edilir**

**Həsənova Leyla Ziyafət qızı**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti**
**Filologiya fakültəsi, müəllim**
**leylamuzi@gmail.com**
**Orcid İd:0009-0006-9057-9**

# XX ƏSR AZƏRBAYCAN ŞEIRININ ROMANTIK ƏNƏNƏLƏRI

**Annotasiya:** Azərbaycan şeirinin tarixinə nəzər saldıqda onun köklərinin çox qədimlərə dayandığının şahidi oluruq. Tarixi qədim olan Azərbaycan poeziyası, əslində öz qədimliyini qoruyub saxlayan ənənələrdir. Azərbaycan ədəbiyyatını digər xalqların ədəbiyyatından fərqləndirən əsas xüsusiyyətlərdən biri odur ki, bizdə ədəbiyyat əsasən lirik növdə, şeir formaları şəklində yaranıb inkişaf etmişdir. Məhz bu səbəblərdən Azərbaycan ədəbiyyatında şeir ənənələri, poetik məktəblər hakim mövqe tutmuş, həm də uzunömürlü olmuşdur. Məqalədə XX əsr Azərbaycan poeziyasındakı romantik ənənələr ön plana çəkilmiş və bu barədə dolğun fərziyələr irəi sürülmüşdür.

**Açar sözlər:** Şeir, romantika, ənənə, romantik üslub.

# ROMANTIC TRADITIONS OF 20TH CENTURY AZERBAIJANI POETRY

**Annotation:** When we look at the history of Azerbaijani poetry, we witness that its roots are very ancient. Azerbaijani poetry, which has an ancient history, is actually a tradition that preserves its antiquity. One of the main features that distinguishes Azerbaijani literature from the literature of other nations is that our literature was created and developed mainly in the form of lyrical poetry. It is for these reasons that poetry traditions and poetic schools have taken a dominant position in Azerbaijani literature and have been long-lived. In the article, the romantic traditions in the 20th century Azerbaijani poetry were brought to the fore and full assumptions were made about it.

**Keywords:** Poetry, romance, tradition, romantic style.

Giriş. Ənənə tarixiliyin əsasıdır. Poeziyada da ənənə sadəcə olaraq keçmişin gözlənilməsi, onun yada salınması deyil, poetik-fəlsəfi bir anlayışdır. Əslində, bədii sənətdə ənənəsi olmayan yenilik, novatorluq yoxdur. Ədəbi-tarixi varislik əsas etibarı ilə öz köklərini, keçmişini unutmamaqdır. Ənənələr də məhz tarixin qoynunda öz yerini tutur. Tarix müasirliklə canlı olduğu kimi, ənənə də novatorluğu qidalandıraraq yaşayır. Yəni, bədii yaradıcılığda novatorluq ənənəyə münasibətin konkretliyindən yaranır. Ənənələr həm ədəbi nəsillər, həm fəlsəfi ideyalar, həm də janrlar arasındakı münasibətləri sistemə salır, onları qırılmağa qoymur. Keçmişə ehtiram hər bir dövrün ədəbi prosesinin bədii estetik səviyyəsini əks etdirir. XX əsrdə də bu belə davam etdi. Tarixin gedişatını qıran sovet rejimi, ənənələri qıra bilmədi. Bu dövrdə yazıb yaradan yazıçılarımız hər nə qədər sovet ideologiyasına xidmət edən əsərlər yazmağa məcbur edilsələrdə, ənənələri, tarixi bağlılığı bu və ya digər dərəcə də qoruyub saxlaya bildilər.

Əsas hissə. XX əsr şeirinin romantik ənənələri öz ilhamını aşağıdakı bir neçə qaynaqdan alırdı:

1. Dahi qəlb şairi Məhəmməd Füzulidən
2. Tofiq Fikrət, Namiq Kamal, Rza Tofiq və b. türk romantik şairlərindən

3. XX əsrin əvvəllərində artıq ədəbi cərəyan kimi formalaşan Azərbaycan romantizmindən
4. Aşıq Alı, Sarı Aşıq, Aşıq Ələsgər və s. adları ilə bağlı romantik aşıq poeziyasından.

XX əsrdə həm bir ədəbi-bədii cərəyan olaraq Azərbaycan romantizminin, həm romantik şeirin ənənələrinin əsasında Məhəmməd Füzuli şeiri dayanır. Füzuli poeziyasının şairlərimizin yaradıcılığına romantik tərzdə təsiri əslində bir daha yuxarıda yazılanları təsdiq edir.

Eyni zamanda, Azərbaycan şeiri həm zəngin aşıq poeziyamızın, həm də XIX əsr Türkiyə romantik şeir ənənlərinə müraciət etmədən inkişaf edə bilmirdi.Nəzərə almaq lazımdır ki, XX əsrin əvvəllərində həm Hüseyn Cavid, Məhəmməd Hadi kimi qüdrətli romantiklər, həm də Mirzə Ələkbər Sabir kimiq dahi satirik ədəbiyyat səhnəsində idi. Adlarını çəkdiyimiz görkəmli şairlərimizlə yanaşı XX əsrin 20-30-cu illərində ədəbiyyata gələn komsomolçu, proletar şairlər: S.Rüstəm, Ə.Fövzi, M.Rahim, R.Rza, M.Müşfiq, S.Vurğun, M.Dilbazi, N.Rəfibəyli, Ə.Cavad həm orta çağların, xüsusən dahi romantik Füzulinin, həm də XX əsrin önlərində fəal olan milli intibah şeirinin ənənələrindən yan keçə bilmirdilər.

XX əsrin ilk iki onilliyində həm romantizmin, həm də "doğma Vətən torpağında ali bir amalın gerçəkləşməsi" sayəsində Cəfər Cabbarlının "Azərbaycan bayrağına", "Sevimli ölkəm", Əhməd Cavadın "Ey əsgər", "Milli bayrağımıza", "Can, can, can Azərbaycan" və s. kimi şeirlər 20-30-cu illərdə "Azərbaycan" poetik epopeyalarının yaranmasına səbəb oldu. Bu dövr və ümumən XX əsrin ilk onilliklərinin poeziyasını səciyyələndirən akademik Məmməd Arif qeyd edirdi ki, öz hisslərini açıq söyləməyə cəsarət etməyən şairlər mistik – simvolik surətlərlə, qeyri-siyasi estetizm ilə öz dərin kədər və hərəkətlərini, keçmiş istismarçı cəmiyyət üçün tökdükləri göz yaşlarını gizlətməyə çalışırdılar.

Aya, ulduza, üçrəngli bayrağa romantik, lakin gizli simvollarla bəzənmiş dərin bir sevgi 20-ci illər poeziyasında hələ milli istiqlal həsrətinin davam etdiyini göstərməkdədir.

Ümumiyyətlə, tədqiqatlar göstərir ki, 20-ci illər şeirinin ən romantik obrazı Ay idi. Bu dövrdə ona müxtəlif epietlərlə müraciət olunsa da, Ay şairin dövrün həqiqətlərindən bezib üz tutduğu obraz idi.

Azərbaycan ədəbiyyatına kənd yazıçısı kimi daxil olmuş Hacı Kərim Sanılının "Ay" şeirinə nəzər salaq:

Köksündəki qara-qara yanıqlar

Söyləyir könlündə dərdü-qəmin var.

Getdikcə ucalan, alçağa enmə,

Büküb qamətini kamana dönmə,

Hər dilə inanma, gücə güvənmə,

Beşguşəli ulduz ilə öpüş, Ay! [2, 50-51]

Göründüyü kimi, Hacı Kərim Sanılının şeiri milli ruhda yazılmış, türkçülük qayəsi ilə süslənmiş bir nümunədir. H.K.Sanılının romantik obrazı azərbaycançılıq və türkçülüyün simvoludur.

“Gözlərim önündən çəksin bir pərdə; Başqasını görməyim sən olan yerdə” kimi açıq anti-sovet mətnlə çıxış edən Bədri Seyidzadə “Mən ağlaram” şeirində yazırdı:

Ay görəndə üzüm düşür xəyala,

Ulduz görcək qərq oluram məlala,

Yetərmiyəm bir də bilməm vüsala?

Mən ağlaram, həm də gözlərim ağlar

Yazdığım kəlmələr, sözlərim ağlar [4, 139].

İstiqlal şairimiz Əhməd Cavad məhz bu səpgidə yazdığl “Göy-göl” şeirindəki aşağıdakı misralara görə 1937-ci ildə həbs olunmuşdur:

Sənin gözəlliyin gəlməz ki saya

Qoynunda yer verdin günəşə, aya.

Oldun sən onlara mehriban daya,

Fələk büsatını quralı, Göy-göl! [4 ,161]

Əhməd Cavad 1923-cü ildə “Sən ağlama” şeirini yazmışdı, eyni zamanda həmin il “Peyğəmbər” dramını yazmış Hüseyn Cavidə “Ay” şeirini də ithaf etmişdi. Bu şeirlərdə, ümumiyyətlə, XX əsrin 20-ci illərinin şeirinə xas olan başlıca bir cəhət var: romantik pafosla siyasi qayənin birləşməsi. “Sən ağlama” şeirindən birinci bəndə nəzər salaq:

Bən deyən yox, fələk deyən oldusa,

Əsdi yellər, gül yanağın soldusa,

Dərd əlindən ala gözlər doldusa,

Sən ağlama, bən ağlayım gözəlim! [3, 152]

“Ay” şeirində şair bir qədər də ictimai üslubda çıxış edir:

Arayırmış kimi onu gizlicə,

Dolaşdıqdan sonra bir uzun gecə,

Səhər ulduzuyla görüşün gözəl,

Elə günlər olur bizlərdən uzaq,

Görünməz olursan bir uzun gecə,

Deyirlər ağlarsan onda gizlicə

Sənin ilə mənim dərdimiz bəlli,

Birlikdə taparıq bəlkə təsəlli [4 ,153]

Qeyd etmək lazımdır ki, Ay, Ulduz, ümumən gözəllik kimi səma cisimləri, romantik atributlar 20-ci illər Azərbaycan şeirinə romantik bir bənzərsizlik bəxş edir. Bu romantikaya milli istiqlal ruhu hakimdir. Bu romantikanı fərqləndirən başlıca cəhət milli dövlətin süqutundan dolayı həsrətdir. Bu həsrət böyük ideallarını itirmiş xalqın ən ali duyğusudur. Cəfər Cabbarlının "Mənim tanrım", "Ey dan ulduzu" şeirləri belə bir gözəlliyin, belə dərin poetik-romantik həsrətin ifadəsidir:

Qaranlıq gecədə səni gözləyib,

Durmaqdan yoruldum, ey dan ulduzu!

Uzaq üfüqlərə göz gəzdirməkdən,

Az qala kor oldum, ey dan ulduzu! [4, 197]

Gözəlliyin və romantikanın ikinci plana keçirilərək sıxışdırıldığı bir dövrdə XX əsrin iki böyük sənətkarı – Hüseyn Cavid və Cəfər Cabbarlının eyni adlı - "Mənim tanrım" şeirlərini yazması da, əlbəttə, təsadüfi deyildi.

Nizaməddin Şəmsizadə qeyd edir: " 1926-1936-cı illərdə bütün sovet tənqidi və ədəbiyyatşünaslığında realizm materializmə, romantizm idealizmə bərabər tutulur. Romantika mücərrəd xəyalın məhsulu hesab olunurdu" [7, 84].

XX əsr Azərbaycan romantik şeirinin əsas qaynaqlarından biri də zəngin aşıq yaradıcılığıdır. "Aşıq gördüyünü çağırar" – bu məsəl Mirzə Ələkbər Sabirin "Şairəm, əsrimin ayinəsiyəm" deyimi kimi aşıq şeirinin realizmini təsdiq edir.

Mahiyyətində həyat həqiqəti olmayan bədii forma, bədii cərəyan və üslub yoxdur. Əsas məsələ budur ki, şair gerçəkliyə hansı gözlə baxır, onu hansı estetik ideal mövqeyindən əks etdirir. Gerçəkliyə realist münasibət realist bədii metodun, romantik bədii münasibət romantik bədii metodun yaranmasına gətirib çıxardır. Bu baxımdan aşıq poeziyamız – Sarı Aşıq, Aşıq Alı, Molla Cuma, Aşıq Ələsgər XX əsrin həm aşıq şeirinə, həm də S.Vurğunun, M.Müşfiqin, C.Cabbarlının, H.Cavidin, N.Xəzrinin, M.Yaqubun, Z.Yaqubun adları ilə bağlı lirik-romantik poeziyaya qüvvətli təsir göstərmişdir.

XX əsrin lirik romantik şeirinə, xüsusən Aşıq Ələsgərin qoşma və gəraylıları nəcib romantik təsir göstərib. Qoşma, gəraylı, təcnis aşıq şeirimizin ən çox işlənən, ən geniş yayılmış formalarıdır. Yığcamlıq, axıcılıq, doğma hecanın sadə poetik ölçüləri bu şeir formalarının əsas xüsusiyyətlərindəndir. Çox vaxt məhəbbət, gözəllik və təbiət kimi əbədi mövzularda yazılıb insan insan qəlbinin kövrək duyğularını əks etdirdiyinə görə bu poeziya insan qəlbinə doğmadır, rahat oxunub əzbərlənir, tez yadda qalır, romantik ovqat yaradır. Aşıq Ələsgərin "Dağlar" şeirinin təsiri altında, xüsusən 30-80-ci illərdə poeziyamızda dağlar haqqında romantik şeirlər yaradılmışdır.

Nəticə. Azəebaycanda bütün sahələrdə olduğu kimi XX əsrdə ədəbiyyat da çox ciddi basqılara, təqiblərə rast gəlirdi. Lakin bütün müdaxilə və təziqlərə baxmayaraq o dövrdə yaşayıb yaradan yazıçılarımız bu siyasi basqıya öz yaradıcılıqları ilə ciddi müqavimət göstərirdilər. İnsanın təfəkkürünü, zəkasını cəmiyyətin qanunlarına tabe etmək olar, lakin ruhunu, qəlbini, duyğularını tabe etmək mümkün deyildir. İnsan duyğusu, insan ruhu – bu

ISSN: 2181-4341, IMPACT FACTOR ( RESEARCH BIB ) – 7,245, SJIF – 5,431

ruhun bədii poetik ifadəsi olan romantik pafos və bədii vüsət insan ruhunun tərcümanı olan lirikanının qoşa qanadlarıdır.

Poeziyada ənənə elə bir məfhumdur ki, onu yeni tarixi dövrdə qəbul etmək, yeni poetik formalarda yaşatmaq şairdən böyük istedad tələb edir. Ənənəyə düzgün münasibət novatorluğun əsasıdır. Görkəmli ədəbiyyatşünas Yaşar Qarayev yazırdı ki, həqiqi novatorluq ənənəyə münasibətin dəqiqliyində və konkretliyindədir. [5, 214]

XX əsrin 20-30-cu illərində də proletkultun bütün mənfi təsirlərinə baxmayaraq novator şeir yaradıcılığında, xüsusilə başlanğıcını dahi Füzuli şeirindən alan bədii-fəlsəfi ənənələr qorunub saxlanılırdı.

**Ədəbiyyat siyahısı:**

1. Həbibbəyli İ. Ədəbi- tarixi yaddaş və müasirlik. Bakı: Nurlan, 207, 692 s.
2. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Üç kitabda. II kitab. Bakı: Elm, 1985, 199 s.
3. XX əsr Azərbaycan ədəbiyyatı məsələləri. Üç kitabda. III kitab. Bakı: Elm, 1989, 232 s.
4. XX əsr Azərbaycan poeziyası antologiyası. I kitab. Tərtib edən: S.Quliyeva. Bakı: Elm, 2009, 408 s.
5. Qarayeb Y. Poeziya və nəsr. Bakı: Yazıçı, 1979, 198 s.
6. Qarayev Y. Ədəbi üfüqlər. Bakı: Gənclik, 1985, 286 s.
7. Şəmsizadə N. Azərbaycan ədəbiyyatşünaslığı. Bakı: Ozan, 1997, 292 s.